BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№1 *Humanitar elmlər seriyası* 2006

# ƏL-ƏMİN – ƏL-MƏ'MUN QARŞIDURMASI VƏ MİSİR

**R.İ.İSMAYILOV**
*Bakı Dövlət Universiteti*

Tədqiqatçılar bir qayda olaraq Harun ər-Rəşidin (786-813) hakimiyyət illərini Abbasilər Xilafəti tarixində ən parlaq dövr, ən gözəl günlər adlandırırlar (1). Həqiqətdə isə müəyyən iqtisadi və mədəni dirçəlişə baxmayaraq məhz Harun ər-Rəşid dövründə nəhəng ərəb imperiyasının sona çatmasının başlanğıcı qoyulmuşdur. Harun ər-Rəşid sonuncu xəlifə oldu ki, öz əyanları ilə birlikdə Məkkəyə Həcc ziyarətinə getdi, düşmənlərinə qarşı vuruşlarda Xilafət ordularının başında durdu və döyüşdü. Ondan sonra belə hallar bir daha təkrar olunmadı. Ancaq bu da faktdır ki, məhz Harun ər-Rəşid dövründə Mərakeş, Əlcəzair, Tunis və Trablis kimi Məğrib ölkələri mərkəzi hakimiyyətdən aralandı, orada İdrisilər (788-ci ildə) və Əğləbilər (800-cü ildə) sülalələrinin hakimiyyəti yarandı (2). Ən başlıcası isə onun ölümündən sonra sülalədaxili mübarizə zəminində siyasi qarşıdurmalar və ziddiyyətlərin kəskinləşməsi baş verdi, aramsız xarakter aldı və prosesə çevrildi. Deyilənlərə onu əlavə etmək istərdik ki, əslində həmin prosesin başlanması səbəbi də elə xəlifə Harun ər-Rəşid tərəfindən hazırlanmışdır. Fikrimizcə, onun da əsasında hələ sağlığında vəliəhdliyi hansı ardıcıllıqla müəyyənləşdirməsi dayanır. O, vəliəhdliyi birincisi əl-Əmin, ikincisi əl-Mə'mun və üçüncüsü əl-Mu'təsim olmaqla sıralamış, bu sıranın qorunması üçün qardaşlar qarşısında şərtlər qoymuş, hər şeyi onlarla rəsmi qaydada razılaşdırmışdı (3). Qeyd edək ki, vəliəhdlər sırasında əl-Əminin birinci yerə çıxarılmasında mövcud ənənələr yox, onun anası Zubeyranın (o, xəlifə əl-Mənsurun nəvəsi idi) ərəb əsilli olması, o biri qardaşların anaları qeyri-ərəb idilər və bütünlükdə hakim Haşimilər nəslinə mənsubiyyəti, eləcə də daha çox siyasi xarakterli amillər başlıca rol oynamışdır.

Elə bu səbəbdən də sonralar qardaşlararası münasibətlər normal məcradan çıxdı. Artıq, xəlifə əl-Əminin (809-813) hakimiyyəti illərində onun öz qardaşı vəliəhd əl-Mə'munla (o, Xorasanda vali idi və bu vəzifəyə 807-ci ildə atası Harun ər-Rəşid tərəfindən təyin edilmişdi) münasibətlərinin kəskinləşməsi, varislik haqqında qardaşlararası razılaşmanın pozulmasına gətirdi. Bu zəmində, onsuz da yetərincə gərgin olan gizli narazılıqlar və ziddiyyətlər açıq silahlı mübarizə müstəvisinə keçdi və hərbi əməliyyatlar qaçılmaz

oldu. Ən başlıcası isə, hadisələrin belə xarakter alması cəmiyyətdə heç də birmənalı qarşılanmadı. Xilafətin bütün siyasi və hərbi qüvvələri, həm də daha çox etnik baxımdan, iki yerə parçalandı: əsasən ərəb kökənlilər xəlifə əl-Əminin, farslar və güclənməkdə olan türklər (onların sırasında ərəblər də yox deyildi) əl-Mə'munun tərəfində durdular.

Qeyd edək ki, qardaşlararası savaş və onunla bağlı Xilafətin mərkəzində və Xorasanda cərəyan edən proseslər haqqında tədqiqatçılar kifayət qədər yazmış və şərhlər vermiş olduqlarından bizim yazımızda həmin hadisənin Misirdə doğurduğu nəticələrdən danışılacaqdır.

Fikrimizə oradan başlamaq istərdik ki, əl-Əmin – əl-Mə'mun qarşıdurması dövründə Misirin başlıca siyasi və hərbi qüvvəsi kimi ərəblərin özləri bölündülər: qeysi qəbilələri əl-Əminin, yəmənilər isə əl-Mə'munun tərəfində durdular. Maraqlıdır ki, əl-Mə'mun yanlıları burada da sıralarında türklərin də az olmadığı xorasanlılarla (4) – türklərlə iş birliyinə girdilər. Məhz həmin birlik sonralar Misirdə türklərin güclənməsinin, hərbi və siyasi qüvvə kimi onlara olan ehtiyacın get-gedə yüksəlməsinin başlanğıcı oldu. Belə ki, qardaşlararası savaşın xəbəri Misirə çatanda buradakı ordu birləşmələri xəlifənin əl-Mə'muna qarşı davranışından qəzəbləndilər və etiraz olaraq onun taxtdan salınmasına qərar verdilər. Onların başında duranlardan birisi əs-Sirri ibn əl-Həkəm (5) adlı şəxs idi. Maraqlıdır ki, o, vaxtilə xəlifə Harun ər-Rəşid tərəfindən Misirə göndərilmiş ordu başçılarından idi və burada əl-Əminə qarşı çıxan qüvvələri, xüsusilə də yəmənilləri darmadağın etməsi ilə şöhrət qazanmışdı. İndi isə əs-Sirri ibn əl-Həkəm özü əl-Əminə qarşı idi. Əs-Sirri ibn əl-Həkəm, dəstək və kömək üçün xorasanlılara-türklərə müraciət etdi və müsbət cavab aldı. Bu iki hərbi güc mərkəzinin birliyi mülki qüvvələri hərəkətə gətirdi və misirli əyanlar da onlara qoşuldu. Beləliklə də ölkədə əl-Mə'mun yanlıları xeyli çoxaldılar və fəallaşdılar. Durumun bu məcrada dəyişməsindən rahatsız olan vali Cabir ibn əl-Əşəs (III.811.-III.812) həmin qüvvələri çəkindirməyə cəhd göstərdikdə isə əs-Sirri ibn əl-Həkəm xalqı əl-Mə'muna beyət etməyə çağırdı. (6) Sonrakı iki hadisə isə vəziyyəti bütünlüklə əl-Mə'munun xeyrinə dəyişdi. Bunlardan birincisi əl-Mə'munun şəxsən özünün misirlilərə müraciətinin razılıqla qarşılanması, ikincisi isə vaxtilə Misir valisi olmuş Hərsəmə ibn-Əyənin (7) orduya ünvanladığı çağırış idi. Ordu, təbiidir ki, onun sıralarında ərəblərlə yanaşı xorasanlılar da var idi, əl-Mə'munun tərəfinə keçdi və ona beyət etdi. 812-ci ilin martında Cabir ibn əl-Əşəs ölkədən çıxarıldı və əl-Mə'munun adından valiliyə İbad ibn Muhəmməd ibn Həyyan gətirildi.

Qeyd edək ki, kindilərin məvlası olmuş İbad ibn Muhəmməd ibn Həyyan sabiq vali Hərsəmə ibn Əyənin Misirdəki mülkləri üzrə müvəkkili idi. Hərsəmə orduya müraciətini də ona göndərmişdi. O da öz növbəsində ordunu cümə məscidinə yığmış, həmin müraciəti oxumuş və ordu tərəfindən əl-Mə'muna beyət olunmasını təşkil etmişdi (8). Görünür, elə bu səbəbdən də əl-Mə'mun yanlıları, həm

ordu, həm də xalq onu valiliyə gətirmişdilər.

Hadisələrdən xəbər tutan xəlifə əl-Əmin əl-Hufdakı qeysilərin başçısı Rəbiə ibn Qeys ibn əz-Zubeyr əl-Curaşini Misirə vali təyin etdi və digər qəbilə başçılarına da ona kömək göstərmək əmrini verdi. Qeysilər bir nəfər kimi xəlifə əl-Əminin müdafiəsinə qalxdılar. Beləliklə də ölkə vətəndaş müharibəsinə sürükləndi.

Hərbi əməliyyatlar 813-cü ilin yanvarında başladı və onların gedişində çox sayda itkilər verən tərəflərdən heç biri əsaslı bir qələbə qazana bilmədi. Döyüşlər yarım ildən artıq davam etdi, yalnız iyulda əl-Əminin öldürülməsi və əl-Mə'munun rəsmən vali təyin olunmasından sonra dayandırıldı (9).

Tədqiqatçıların geniş yayılmış belə bir fikrini xatırlatmaq istərdik ki, xəlifə əl-Mə'munun hakimiyyəti illəri Xilafətin elmi, ədəbi və mədəni həyatında böyük bir canlanmanın baş verməsi ilə yanaşı, sosial-siyasi və iqtisadi həyatda qarşıdurmalar və separatizmin güclənməsi, sosial mübarizənin və kəndli üsyanlarının aramsız artması və genişlənməsi ilə xarakterizə olunur (10). Bu baxımdan öz miqyası və müddətinə görə bütün orta əsrlərin ən güclü hərəkatlarından sayılan xürrəmilərin azadlıq savaşını (816-837) yada salmaq kifayətdir (11).

Belə bir vəziyyət Misir üçün də səciyyəvi olmuşdur. Haqqında danışılan dövrün bir neçə ili ərzində əl-Huf qeysilərin şəriksiz hakimiyyəti altında qalmaqda idi və onlar mümkün olan bütün məqamlarda Fustata tabeçilik göstərmək istəyində belə deyildilər. Məhz bu səbəbdən də vətəndaş müharibəsi yenidən və səngimək bilmədən davam etməkdə idi. Vəziyyət həm də onunla mürəkkəbləşir və çətinləşirdi ki, bir tərəfdən Misirdəki mərkəzi hakimiyyət təmsilçiləri və tərəfdarlarının özləri də iki yerə bölünmüşdülər və siyasi hegemonluq uğrunda bir-birilə qanlı mübarizəyə başlamışdılar. O biri tərəfdən isə, həmin arada uzaq Kordovada baş verən hadisələr gözlənilmədən Misirdə ciddi problem yaratmışdı və onun həlli çox böyük maddi və fiziki məsrəflər tələb edirdi. Belə ki, 814-cü ildə Kordovada baş vermiş üsyan xüsusi amansızlıqla yatırıldıqdan sonra onun sağ qalan bütün iştirakçıları gəmilərə doldurularaq Ənbəlüsdən çıxarıldı (12). Onların bir hissəsi Qərbi Afrika sahillərinə üz tutdu, təqribən 15 min nəfərlik digər hissə (13) də Misirə gəldi və İsgəndəriyyə ətrafında düşərgə saldı. Əndəlüslülər öncə bölgədə yaşayan yəmənilərə sığınmaq istədilər. Lakin çox keçmədi ki, mövcud hərc-mərclikdən istifadə edərək onlar özlərini müstəqil aparmağa başladılar, siyasi və hərbi xarakterli hadisələrdə tərəfə çevrildilər, hətta bəzi hallarda proseslərin episentrində dayandılar (14). Məhz bu zəmində 816-cı ilin ortalarında İsgəndəriyyənin hakimiyyətini bütünlüklə ələ keçirdilər və orada öz qayda-qanunlarını yaratdılar (15). Bundan sonra ehtiraslar daha da alovlandı, bəzən eyni, bəzən də müxtəlif tərəfləri və maraqları təmsil edən qüvvələr arasında ziddiyyətlər və savaşlar artdı və genişləndi. Bütün bunlar çox böyük maddi itkilərə gətirdi. Minlərlə insan tələfatı oldu. Ölkənin nəinki siyasi həyatı tamam pozuldu,

həm də iqtisadi həyatı çökdü. Vəziyyət o qədər ağırlaşdı ki, indiyə qədər proseslərdən kənarda duran və tərəfsiz mövqe tutan qibtilər belə 819-cu ilin martında açıq-aşkar şəkildə öz etiraz səslərini qaldırdılar.

Onu da qeyd edək ki, xəlifə əl-Mə'munun Misirdə baş verən prosesləri daimi nəzarətdə saxlamaq və onların həlli üçün bəzən yerli qüvvələrə, bəzən Bağdaddan göndərdiyi valilərə ümidlər bəsləməsi siyasəti müəyyən zaman kəsiyində özünü doğrultmadı və problemlərin həllində real və müsbət nəticələrə gətirmədi. Əksinə, onların daha da şişməsinə və mürəkkəbləşməsinə şərait yaratdı. Əlacsız qalan əl-Mə'mun 825-ci ildə dövrün ən güclü ordu başçılarından Abdullah ibn Tahiri (825-827) Misirə vali təyin etdi və problemin həllini ona tapşırdı. Qeyd edək ki, Abdullah ibn Tahir də işin öhdəsindən çox bacarıqla gələ bildi.

Bu məsələdə əl-Mə'mun yanlısı olan bir sıra qüvvələrin ilk gündən Abdullah ibn Tahirin tərəfinə keçməsi də az rol oynamadı. Lakin aparılan hərbi əməliyyatların əsas ağırlığı Abdullah ibn Tahirin öz ordusunun, xüsusilə də xorasanlı-türk hərbi dəstələrinin üzərinə düşürdü. Təsadüfi deyildir ki, İsgəndəriyyəyə göndərilən ordunun önündə xorasanlı əl-Abbas (16) və Haşimin başçılıq etdiyi hərbi dəstələr getmişdi. Elə onların da güclü hücumlarına heç bir müqavimət göstərə bilməyən əndəlüslülər İsgəndəriyyəni və sonda ümumiyyətlə Misiri tərk etmək zorunda qalmışdılar (17).

Görünür elə bu səbəbdən idi ki, (atası vasitəsilə Xorasanla bağlılıq amilini də inkar etmək istəməzdik) Abdullah ibn Tahir Misirdə bir sıra mühüm dövləti vəzifələrə qeyri ərəbləri – türkləri və farsları gətirdi. Məsələn, onun ilk təyinatlarından biri xorasanlı Əbdəveyh ibn Cəbələnin (18) şurta başçılığına gətirməsiydisə, digəri İsgəndəriyyənin valiliyini fars İlyas ibn Əsəd ibn Saman Xudaya tapşırmasıdır.

Abdullah ibn Tahirin valiliyi İsa ibn Yəzid əl-Culudiyə (X.827.-IV.829) həvalə edərək Bağdada qayıtmasından sonra baş verən hadisələr Misirdə türk mövcudluğunu daha geniş miqyaslı və davamlı etdi. Belə ki, 829-cu ilin yanvarında xəlifənin Misirə vali təyin etdiyi Əbu İshaq ibn Harun ər-Rəşidin, - gələcək xəlifə əl-Mu'təsimin, - elçisi Əbu-l-Xeyr Bəşir ibn Burd Fustata gəldi. O, Əbu İshaqın adından əl-Culudini vəzifəsində saxladı. Lakin xərac işlərini Salih ibn Şirzad adlı şəxsə həvalə etdi. Təbiidir ki, xəlifənin bu təyinatı Misirdə illərdən bəri tüğyan edən özbaşınalıqlara son qoymaq, ölkədə əmin-amanlıq yaratmaq, dağılmış iqtisadi həyatı bərpa etmək, ən başlıcası isə normal fəaliyyətini itirmiş xərac aparatını işə salmaq (xərac işlərini valinin səlahiyyətindən çıxarıb başqa şəxsə verməsi elə bunun göstəricisi idi) və Xilafət xəzinəsinin böyük ehtiyac duyduğu maliyyə vəsaitlərini Bağdada göndərmək məqsədi daşıyırdı. Maraqlıdır ki, yeni hakimiyyət elə ilk gündən öz fəaliyyətinə sonuncu məqsəddən başladı, xəracı artırdı. Bu isə ağır iqtisadi və sosial məhrumiyyətlər içərisində yaşayan və yaranmış istiqrara böyük ümidlərlə baxan xalqın, birinci növbədə so-

sial cəhətdən daha fəal olan Aşağı Misir əhalisinin кəsкin etirazları ilə qarşılandı. Gündən-günə güclənən və genişlənən narazılıqlar 829-cu ilin yanvarında bölgə əhalisinin – ərəblərin və qibtilərin üsyanı ilə nəticələndi. Üsyan Misirin bütün bölgələrinə yayıldı, müxtəlif sosial təbəqələri və qüvvələri öz sıralarına aldı.

829-832-ci illər üsyanı yalnız Misirin yox, bütün Xilafətin həyatında dərin izlər buraxmışdır (19). Biz burada onların təfərrüratına varmadan diqqəti maraq doğuran bir məqama yönəltməк istərdiк. O da Misirdə baş verən proseslərdə türкlərin fəal iştiraкı və əvəzsiz rolu ilə bağlıdır. Belə кi, üsyanı yatırmaq yolunda bütün cəhdlər, hətta xəlifə əl-Mə'munun qeysilərə və yəmənilərə istədiкləri hər şeyi verəcəyinə dair vədləri (20) nəticəsiz qaldı və həmin səbəbdən də 829-cu ilin oкtyabrında xəlifə əl-Mə'mun qardaşı Əbu İshaqı türкlərdən təşкil edilmiş dörd min nəfərliк bir ordu ilə Misirə göndərdi. Yalnız bundan sonra üsyançılara qarşı döyüşlərdə dönüş yarandı və Əbu İshaqın türк ordusu üsyançıları əzə bildi. Misirdə istiqrarı bərpa etdiкdən sonra 830-cu ilin fevralında Şama yollanan Əbu İshaq valiliyi irəlidə haqqında danışacağımız xorasanlı türк Əbdəveyh ibn Cəbələyə tapşırdı (21). O da valiliкdən sonra mühüm vəzifə sayılan şurtanın başına öz oğlunu gətirdi.

Əbdəveyh ibn Cəbələ (II.830-I.831) Abbasilər Misirinin tarixində birinci xorasanlı, iкinci türк vali olmuşdur. Məhz onun təyinatından başlayaraq Misir valiləri sırasında ərəblərin sayı azalmış, qeyri-ərəblərin, özəlliкlə, daha çox türкlərin sayı artmış, ölкənin siyasi-hərbi həyatında onların yeri və rolu yüкsəlmişdir.

## ƏDƏBİYYAT


1. Qeyd: Fərqli mövqe tutanlar da, məsələn, Belyayev Y.A. kimi, vardır. Bax: Беляев Е.А. Арабы, ислам и Арабский Халифат в ранее средневековье. Москва, Наука, 1966, с.214.
2. Elçibey E. Tolunoğulları devleti (868-905). İstambul, -Ötüкen, - 1997, s.32.
3. Əs-Süyuti Cəlal əl-Din. Tarix əl-xülafa, Mısr, 1304 h., s.115-116 (sonralar: Süyuti. Tarix əl-xülafa); Ахундова Н.А. Тюрки в системе государственного управления Арабского Халифата (VIII – сер. X вв.). Баку, Элм, 2004, с.136 (sonralar: Ахундова Н. Тюрки).
4. Qeyd: Mənbələrdə xorasanlı və türк arasında fərq qoyulmur (Bax: Асадов Ф.М. Арабские источники о тюрках в ранее средневековье. Баку-Элм, 1993, с.51)
5. Əl-Kindi. Vulat Mısr. Beyrut, 1959, s.173-174 (sonralar: Kindi. Vulat)
6. Kindi. Vulat, s.174-175; Əl-Məqrizi ibn Taqi əd-Din. Əl-Məvaiz va-l-i'tibar bi-ziкr əl-xitət va-l-asar, əl-cüz II, əl-Qahirə 1325 h., s.98; İbn Təğribərdi. Ən-nücum əz-zahirə fi müliк Mısr va-l-Qahirə, əl-cüz III, əl-Qahirə. 1963, s.149-150.
7. Hərsəmə ibn Əyən dövrün ordu başçılarından idi. Bax: Aliev A. İran i İraк. M., 2002, s.259.
8. Bax: Kindi. Vulat, s.175; Məqrizi. Xitət, II s.98; İbn Təğribərdi. Nücüm, II, 153.
9. Kindi. Vulat, s.177.
10. Мюллер А. История ислама. Книга IV. М., 2004. сс.707-730. Беляев Е.А. Арабы, сс.215-216; Алиев А. Иран и Ирак, сс.259-266; Ахундова Н. Тюрки, сс.139-149.
11. Bünyadov Z. Azərbaycan VII-IX əsrlərdə. Baкı, 1989, s.212-272.

12. I Həкəm (796-822) haqqında bax: А.Ализаде. Хроника мусульманских государств. М., 2004, с.233.
13. Мюллер А. История ислама. IV, с.713.
14. Kindi. Vulat, s.183-196.
15. Orada, s.187-188.
16. Kindi, Vulat, s.207. Qeyd: Yə'qubiyə görə əl-Abbasın tam adı əl-Abbas ibn Haşim ibn Batıcurddur. Bax: Əl-Yə'qubi ibn Yə'qub. Ət-Tarix, əl-Qahirə, 1960, s.561. Buna görə də N.Axundova əl-Abbası vali olmuş (bax: ət-Təbəri. Tarix ər-rusul va-l-mulк, əl-cuz əs-salis, əl-Qahirə, 1969, s.1044) türк Davud ibn Batıcurun qohumu hesab edir. Ахундова Н. Тюрки, с.142.
17. Kindi. Vulat, s.207; Мюллер А. История ислама. IV, с.714.
18. Kindi yazır: «[Abd əl-lah ibn Tahir] cə'ələ alə əş-şurta Əbdəveyh ibn Cəbələ min əl-əbna-[Abdullah ibn Tahir] –əl-əbnadan olan Əbdəveyh ibn Cəbələni əş-şurtaya başçı [təyin ] etdi». Bax: Vulat, s.206. Qeyd: Ərəblər xorasanlıları «əbna əd-dəva» və yaxud «əbna əd-davlə» adlandırırdılar. Bax: H.Kennedy. The Early Abbasid Caliphate. A politic history. London, 1981, p.104; А.Мец. Мусульманский ренессанс. М., 1966, с.138.
19. Исмаилов Р.И. Восстание 829-832 гг. в Египте. Известия АН Азерб. ССР (серия «история, философия, право»), 1990, №3, с.43-49.
20. Kindi. Vulat, s.209.
21. Orada, s.213; Məğrizi. Xitət, II, s.100; İbn Təğribərdi. Nücum, II, 204.

## ПРОТИВОСТОЯНИЕ МЕЖДУ АЛ-АМИНОМ И АЛ-МАМУНОМ И ЕГИПЕТ

**Р.И.ИСМАИЛОВ**

### РЕЗЮМЕ

В ходе и после противостояния между братьями ал-Амином и ал-Мамуном в Египте произошли ряд событий, которые в свою очередь наложили глубокий отпечаток на жизнь страны в целом. В этих событиях, наряду с арабами принимали участие и неарабы, особенно заметна в них роль тюрок, деятельность которых стала неизбежной в силу ряда причин, приведших к увеличению роли и места тюркского этноса в военно-политической жизни Египта.

В результате тюрки получили важные посты во властных структурах и значительно укрепили свое влияние в стране.

## DISPUTE BETWEEN AL-AMIN AND AL-MAMUN AND EGYPT

**R.I.ISMAILOV**

### SUMMARY

In the course and after the competition between al-Amin and other candidate for the power al-Mamun. Significant changes, that had a deep impact on the life of the country, have taken place in Egypt after coming to force of Caliph al-Mamun (813-333). In this event, in parallel to Arab, also participated non-Arab nations, especially significant was the rote of the activities of those was inevitable and as an outcome brought to increase of role of the Turks in military and political life of Egypt.

As a result, the Turks have occupied important positions in me government and significantly strengthen their authority in the country.